# Teatr dövlətin ərköyün övladıdır

## (Müsahibə)

Qısa arayış: İntiqam Soltan oğlu Həsənli (İntiqam Soltan) 1965-ci ildə Ordubad rayonu Nürgüd kəndində anadan olub. Orta təhsilini Aza kənd məktəbində alıb. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və Kino aktyorluğu fakultəsinə qəbul olub. 1983-1985-ci illərdə Rusiyanın Cənubi Sibir vilayətində hərbi xidmətdə olub. Sonralar Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrında, 1995-ci ildə Azərbaycan Dövlət Gənclər Teatrında aktyor kimi fəaliyyət göstərib. Əsası 1988-ci ildə İntiqam Soltan tərəfindən qoyulan "Körpəm" Eksperimental Uşaq Teatr-Studiyası, 2000-ci ildən müstəqil Bakı Uşaq və Gənclər Teatrı kimi fəaliyyətə başlayıb. İntiqam Soltan öz təşəbbüsü və zəhməti ilə yaratdığı bu teatra direktor təyin olunub. 2021-ci il yanvar ayından etibarən Uşaq Teatrı Bakı Uşaq və Gənclər Teatrı kimi fəaliyyətini davam etdirir. İntiqam Soltan 2018-ci ildə "Əməkdar artist" fəxri adı alıb.

2022-ci ilin sonlarında Mingəçevir Dövlət Dram Teatrına direktor təyin olunub. Ailəlidir. 3 övladı var.

**-Xoş gördük, İntiqam müəllim.**

-Xoş gördük.

**-İntiqam müəllim, siz yarım əsrdən bir az yaşı çox olan Mingəçevir Dövlət Dram Teatrına yenicə direktor təyin olmusunuz. Əvvəla, sizi təbrik edirəm. Yarandığı gündən özünün dəsti-xətti olan bu teatr haqda nə düşünürsünüz?**

-Mən düşünürəm ki, hər bir dövlət teatrının öz dəsti-xətti, özünəməxsus bir yaradıcı üslubu olmalıdır. Bu, təbiidir. Ümumiyyətlə teatrlar bir-birini təkrarlamamalıdır. Hər bir yaradıcılıq müəssisəsi öz dərin köklərini, öz yaradıcılıq ənənəsini qoruyub saxlamalıdır. Çalışacam ki, mən də bu ənənəni qoruyub saxlayım. Axı, bu da bir tarixdir. Bizim tarixi dəyişməyə mənəvi haqqımız yoxdur! Amma bu, bir yaradıcı iş olduğu üçün biz tərəqqiyə, inkişafa doğru getməliyik. Bunu yaşadığımız dövr, zəman tələb edir. Biz tərəqqiyə, inkişafa doğru nə qədər sürətlə getsək, inkişaf yolumuz da aydın, pak, təmiz və parıltılı olacaq! Bir sözlə, çalışacam ki, bu ənənəni daha da rəngarəng etməyə nail olum. Bunun üçün maraqlı repertuar, gərgin iş tələb olunur. İnanıram ki, bunu edəcəyik. Bilirsiniz, bu bədnam pandemiya bütün respublika teatrlarına öz mənfi təsirini göstərdi. Ümumiyyətlə, yaradıcı təşkilatlar mütəmadi olaraq, daima işləməlidirlər. Amma karantin şəraiti bizləri bir ildən çox işləməyə qoymadı. Bizlər də keçən bu boşluğu doldurmalıyıq. Əvvəlcə dediyim kimi gərgin işləməliyik. Bunu bizdən Mədəniyyət sahəsində aparılan yeni islahatlar da tələb edir. Mən də öz növbəmdə çalışacam ki, bu etimadı bacardığım qədər doğruldam.

**-Mən yaxşı bilirəm ki, siz paytaxtda - Bakıda sıfırdan bir Uşaq Gənclər Teatrı yaratmısınız. Çox istedadlı truppanız da var. Məlumatlıyam. Bir neçə tamaşalarınıza da baxmışam. Onu da bildirim ki, teatr yaratmaq və onu yaşatmaq heç də asan bir iş deyil. Bu iş çox gərgin bir zəhmət tələb edir. Belə bir işi görmək üçün tam savadlı, güclü teatr mütəxəssisi və sözün əsl mənasında bu sahənin fanatı olmalısan. Bu da Azərbaycanda hər adama müəssər olmayıb. Bir neçə sənətkarlarımızı çıxmaq şərtilə. Onlar da dünyasını dəyişiblər. Allah rəhmət eləsin! Bax, belə olan tərzdə siz bu teatrda nə kimi islahatlar aparmaq fikrindəsiniz? Sıfırdan teatr yaratmaq... ya...**

-Xeyr. Niyə ki, yenidən teatr yaratmalıyıq. Axı mən əvvəldən dedim. Bu teatrın öz dəsti-xətti, samballı bir tarixi vardır. Mən istəməzdim ki, köhnə ənənəni dağıdıb sıfırdan teatr yaradaq. Heç inanmıram ki, bu uğurlu bir nəticə verə bilər. Biz indi XXI-ci əsrdə yaşayırıq. Bu əsr son dərəcədə inkişaf etmiş elm, texnika əsridir. Biz əvvəldən inkişafdan, tərəqqidən danışırıq. Elm, mexanika inkişaf etdikcə biz də, bizim ədəbiyyatımız, incəsənətimiz də istər-istəməz inkişafda olur. Belə sürətli inkişaf dövrlərində təbii ki, cəmiyyətimizdə zövqlər dəyişir. Ədəbiyyata, incəsənətə də tələbat artır. Tamaşaçılar daha da tələbkar olur. Hər bir işə yeni, dəqiq bir prizmadan baxılır. Özü də nəzərə alsaq ki, televiziyalar, sosial şəbəkələr, internet və mətbuat bir sözlə informasiya bolluğudur. Bax, onda da teatrların yükü birə - on artır. Belə bir informasiyalar bolluğunda teatrlar tamaşaçını özünə cəlb etməyin yollarını tapmalıdır. Hələ ki, qismən bu işin öhdəsindən gələ bilirik. Əgər bu işi tam görə bilsək, bu əsl qəhrəmanlıq - teatrı doğma tamaşaçıları ilə birgə göylərə qaldırmaqdır.

İnanıram ki, bunu edə biləcəyik. İlk öncə repertuara çox ciddi şəkildə diqqət etməliyik. Bir də ki, siz çox düzgün qeyd etdiniz. Bizim ölkəmizdə bir çox teatrlar böyük zəhmət və yüksək bacarıqlar sayəsində yaradılıb.

Siz məndən konkret olaraq, bu teatrda hansı islahatlar aparılacağı barədə soruşdunuz. Bu suala mən ətraflı cavab verməK istəyirdim...

Amma qısası odur ki, tam islahatların nəticəsinə çox da yox, qısa bir zaman lazım olacaq. Bunu da hamımız görəcəyik. Hələ ki, əvvəlcədən dediyim kimi, teatrın ürəyi repertuardır. Ona da, gördüyünüz kimi əl gəzdiririk.

**- Teatrı əsl sənət məbədinə çevirmək üçün istedadlı truppa və son dərəcədə qarmaqarışıq olan bu dövrün əyər-əksikliyini əks etdirən repertuar seçmək mümkün olacaqmı?**



-İstərdim ki, suallarınızın birinci hissəsinə cavab verim. Sonra keçək ikinci hissəyə. Axı, sizin bu sualınız iki hissəli oldu (gülür). Əvvəla, onu deyim ki, bu teatrın çox istedadlı aktyor-truppası var. Bu aktyor truppasında gənc nəsil, orta nəsil və yaşlı nəslin aktyorları var. Gənc nəsil hələ ki, öyrənir. Orta nəsil artıq püxtələşib. Yaşlı nəsil öyrədir. Çünki lazımi qədər təcrübələri var. Belə çoxşaxəli truppa teatrlarda nadir hallarda olur. Nə yaxşı ki, bu, bizim teatrımızda vardır. Bunun özü bir rəngarənglikdir. Bir sözlə, aktyor truppasında heç bir narahatçılığımız yoxdur. İstənilən müxtəlif janrlı pyesləri bu teatrın səhnəsində hazırlamaq olar. İkincisi, klassik teatrın hamısını demirəm. Bəzilərində bir ənənə var. Problemləri göstərib, tamaşaçını həmin problemlərlə yükləyib, sonra da pərdəni onun üzünə bağlamaq. Demək istəyirəm ki, bu həmişə belə olmayıb. Amma əksər hallarda olur. Mən belə düşünürəm ki, indiki dövrdə tamaşaçı zövqü ilə razılaşmaq lazımdır. Çünki tamaşaçı ağır təqdimatla razılaşmaya bilər. Allaha çox şükürlər olsun ki, ədəbiyyatımızda çoxlu janrlar var. Biz də teatrın öz ənənəsini saxlamaq şərtilə, müxtəlif janrlardan istifadə edib, tamaşalar hazırlayırıq. Tamaşaçı da teatrın onun dilində danışdığını görüb, teatrı özünə daha yaxın, daha doğma bilib onun ətrafında toplanacaq.

**-Siz uzun müddətdir ki, Uşaq və Gənclər Teatrında işləmisiniz. Uşaqlar üçün pyeslər hazırlamısınız. İndi isə Mingəçevir Dövlət Dram Teatrındasınız. Düşünürəm ki, dövlət dram teatrında ciddi - dramatik əsərlər oynanılmalıdır...**

-Xeyr. Xahiş edirəm, inciməyin. Bu, belə deyil. Heç belə bir qanun da yoxdur. Mən bunu axı əvvəldən də dedim. İndiki vəziyyətdə biz teatra kütləvi şəkildə tamaşaçı cəlb etməliyik. Bunun üçün tamaşaçının öz dilində danışıb, sonra teatrın əsas ideyasını saxlayıb, keçid almalıyıq siz dediyiniz o ciddi - dramatik əsərlərə. Yeri gəlmişkən, biz, artıq bu eksperimentə hazırıq. Bu ildən afişalarda yaş həddi göstərilməklə, repertuarın əlli faizi uşaq tamaşaları olacaq.

**-Bəzi hallarda rejissor və direktor arasında bir soyuqluq müşahidə olunur. Sizdə necə, belə olacaqmı?**

-Əsla, yox. Mən bunu çox qətiyyətlə deyirəm. Teatrımızın baş rejissoru Vüsal Mehrəliyevi mən hələ Bakıda işləyəndən tanıyıram. O, çox savadlı, işgüzar və istedadlı rejissordur. Həm də çox bacarıqlı bir aktyordur. Gənc Tamaşaçılar Teatrında aktyor kimi də fəaliyyət göstərib. Bir sıra seriallarda və filmlərdə çəkilib. Biz bir-birimiz ilə əl-ələ verib bu teatrda çox maraqlı yaradıcılıq işləri görəcəyik.

**- Siz özünüz də aktyorsunuz. Səhnəsiz darıxmırsınız?**

-Əlbəttə, darıxıram. Səhnəsiz mənim üçün çox çətin olar. Rejissorlar mənə rol təklif etsələr etiraz etmərəm. Hal-hazırda Əli Əmirlinin "Varlı qadın" pyesinin məşqləri gedir. Quruluşçu rejissor Respublikanın Xalq artisti Valeh Kərimovdur. O, mənə rol verib. Bir də ki, mən ixtisasca aktyoram axı.

**-Övladlarınız necə. Bu teatr sahəsini seçənləri varmı?**

-Xeyr. Üç övladım var. Oğlum fizikdir. İki qızım isə dilçidirlər. Qızlarımın biri türk dilləri üzrə alimdir. Digəri isə fransız dili mütəxəssisidir. Amma üçü də teatrı sevir. Ona görə ki, teatrda böyüyüblər.

**-Allah sağ eləsin. Bu teatr yarandığı gündən respublikanın ən nüfuzlu teatrlarının sırasında olub. Sizcə, əvvəlki nüfuzuna qayıdacaqmı?**

-Siz niyə belə düşünürsünüz? Bu teatrın həmişə nüfuzu olub və olacaq. Bu fikrim birmənalıdır. Bu teatrın nüfuzlu olması üçün məndən əvvəlki rəhbər işçilər də hərəsi öz vicdanı daxilində çalışıb zəhmət çəkiblər. Mən də çalışacam! Gələcəyə inamla baxmalıyıq! Ümidlə deyə bilərəm ki, yaxın gələcəkdə teatrımıza güclü tamaşaçı axını olacaq. Baxmayaraq ki, təhsil işçiləri bu yeni il ərəfəsində bizimlə həmrəy olmadılar. Onlar bizim bilet satışlarımızı əngəllədilər. Özü də bildiyimə görə bu teatrın tarixində heç vaxt belə bir hal olmamışdı. Axı, teatr özü bir elm, təhsil ocağıdır. Teatrsız təhsil - təhsilsiz də teatr olmaz. Nədən teatrın hazırladığı Yeni il şənliyində təhsil şöbəsi laqeyd yanaşdı bilmirəm?!

Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılovla söhbətimiz olub. O, teatrın tam səmərəli fəaliyyəti üçün əlindən gələni etməyə hazır olduğunu bildirib. Onu da bilirəm ki, cənab başçı teatral adamdır. Biz də ona inanırıq. Təki, belə olsun. Belə bir deyim var: "Teatr dövlətin ərköyn övladıdır. Ona hamılıqla yardımçı olmalıyıq".

Teatr - dövlətimizin, cəmiyyətimizin canlı tribunasıdır. Bu tribunadan çox bilgilər öyrənmişik. Yaxşı bilgiləri qəbul edib, neqativ bilgiləri istər-istəməz özümüzdən kənarlaşdırırıq. Odur ki, teatrlarımız həmişə dövlətimizin diqqət mərkəzində olub və dövlətimizin qayğısı ilə əhatə olunub. Bu ulu öndər Heydər Əliyevin vaxtından bu vaxtacan belə olub və olacaqdır. Amma bir də təkrar edirəm. Təhsil şöbəsi niyə belə edir? Bu suala cavab tapa bilmirəm.

**-Sonda nə demək istəyirsiniz?**

-Demək istəyirəm ki, dünyamızda sülh, əmin-amanlıq olsun. Hamının rifahı yaxşı və sağlam olsun. Bütün teatrlara yaradıcılıq uğurları arzulayıram. Ən əsası işğaldan azad olunmuş torpaqlarımızda tikinti-bərpa işləri sona çatsın. Ağdam, Şuşa teatrları öz doğma yurdlarında, öz yeni binalarında öz tamaşaçıları ilə kompakt şəkildə doğma yurdda teatr tamaşalarında baş-başa qalsınlar. İnanıram ki, bu da tezliklə olacaq. Biz də həmin teatrlara qonaq gedib, orada tamaşalarımızı oynayacağıq.

**P. S. İntiqam Soltan, çox haqlı bir mövzuya toxundu. Mingəçevir Təhsil şöbəsinin teatra laqeyd münasibəti heç də xoşagələn hal deyil. Mən - bu sətirlərin müəllifi bu şəhərdə doğulub böyümüşəm. Bu teatrda da uzun illərdir ki, işləyirəm. Bu dövrlərdə mən belə neqativ hallarla rastlaşmamışam. Ümidvaram ki, Təhsil Nazirliyinin və şəhər İcra Hakimiyyətinin başçısı çox hörmətli İlham İsmayılovun köməkliyi ilə bu işlər müsbət həllini tapacaq. Mingəçevir teatrının gənc nəslin inkişafında, bu şəhərin mədəniyyətinin yüksəlməsində həmişə müstəsna xidməti olub və olacaqdır. Axı bu teatr şəhərin yeganə peşəkar kollektividir. Bunu qorumaq isə hər bir mingəçevirlinin müqəddəs borcudur.**




**Qabil İBRAHİMLİ,**
**Aktyor-jurnalist,**
**"Azad Azərbaycan" qəzetinin əməkdaşı**



Azad Azərbaycan.- 2023- cü il.- 2 mart.- S. 7.